# Kosmik elmin inkişafına bağlı ömür



Mötəmən Eyniyev Azərbaycan Respublikası ekologiyasının öyrənilməsində və bir elm kimi formalaşmasında böyük xidmətləri olan alimlərimizdən biridir. Azərbaycanın ən qədim və zəngin təbiətə malik olan Yardımlı rayonunun Kürəkçi kəndində doğulan Mötəmən Eyniyev 1953-cü ildə orta məktəbi bitirib bir müddət təsərrüfat işləri ilə məşğul olmuş, 1957-ci ildə Kürəkçi kənd məktəbinə bədii rəhbər vəzifəsinə təyin edilmişdir. 1959-1963-cü illərdə Bakı Yüngül Sənaye Texnikumunun axşam şöbəsində təhsil almışdır. Texnikumu bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin geoloji-coğrafiya fakültəsinin coğrafiya-biologiya şöbəsində oxumaqla yanaşı, respublika gənc təbiətçilər stansiyasında dərnək rəhbəri, metodist, direktor müavini vəzifəsində çalışan Mötəmən Eyniyev sonralar Bakının Nərimanov rayonunda yerləşən 72, 77 və 116 saylı orta məktəblərdə müəllimlik etmişdir. 1969-cu ildə Qaradağ rayon 224 saylı orta məktəbdə pedaqoji fəaliyyətlə məşğul olan gənc mütəxəssis 1976-cı ildən Azərbaycan Respublikası Nazirlər Soveti Təbiəti Mühafizə Komitəsində dövlət inspektoru işləməklə bərabər, respublikanın qiyabi orta məktəblərində və Azərbaycan Balıq Sənayesi Texnikumunda pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 1980-cı ildə Azərbaycan Dövlət Universitetinin pale-bio-geo-kimya izotop analiz laboratoriyasında böyük mühəndis vəzifəsinə təyin edilən Mötəmən müəllim elə həmin universitetin palentologiya-tektonika, tarixi geologiya və SSRİ xalqları geologiyası kafedrasında baş laborant vəzifəsinə keçirilmişdir.

1984-cü ilin dekabr ayından indiyə kimi SSRİ Baş Kosmos İdarəsi Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutunda böyük mühəndis, kiçik elmi işçi, elmi işçi, Ekologiya İnstitutunda elmi işçi, böyük elmi işçi, aparıcı elmi işçi vəzifələrində çalışmışdır.

Mötəmən Eyniyev Azərbaycan torpaqlarının aerofoto şəkillər vasitəsilə kosmosdan öyrənilməsi və xəritələşdirilməsi işində fəal iştirak etmiş, bu məqsədlə “Kosmos xalq təsərrüfatının xidmətində” kompleks proqramının işlənib hazırlanmasında öz əməyini əsirgəməmişdir. Bu proqramda respublikamızda torpaqların eroziyası, şorlaşması, bataqlaşması təhlükəsinin qarşısının alınması yolları göstərilmişdir. Kollektivimizin alim və mütəxəssisləri yeni texnika və texnoloji vasitələrin, eləcə də “Mir”dən çəkilmiş aerokosmik şəkillərin köməyi ilə torpaqlarımızın tədqiqatını aparmışlar. Bu işlərin aparılmasında, o cümlədən respublikamızın dağ, dağətəyi və aran rayonlarında şorlaşmaya, bataqlaşmaya, eroziyaya uğramış və irriqasiya eroziyasına məruz qalmış torpaqların saflaşması, yay və qış otlaqlarının vəziyyəti, meşələrin yanğından və sel eroziyasından mühafizəsi, yeraltı suların səviyyəsinin öyrənilməsində Mötəmən Eyniyevin böyük xidmətləri olmuşdur. O, Böyük Qafqazın cənub yamaclarında yerləşən Acınohur düzündə keçirilən “Günəş-84” Beynəlxalq Aerokosmik eksperimentində ümumdünya poliqonunun iştirakçısı olmuş və 1986-cı ildə institutun dissertantı təsdiq edilmişdir.

Mötəmən Eyniyev o alimlərdəndir ki, ekologiya elminin ecazkar nailiyyətlərinə yiyələnmək üçün onun pillələrini addım-addım çıxmış, bu pillələrin hər birində nəfəsini dərərkən institut kollektivini düşünmüş, onun gələcək uğurlu inkişafı naminə əlindən gələni əsirgəməmiş, gənc nəsillərin püxtələşməsinə, onların elm yolunda səbatlı addımlar atmasına var qüvvəsilə çalışmışdır. Azərbaycan kosmik elminin inkişaf və formalaşmasında o, çətin və şərəfli bir yol keçmişdir. Tətbiqi kosmonavtika elminin sürətli inkişafına çalışan Mötəmən Eyniyev bir neçə il Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutunda mətinləşdikdən sonra Ekologiya İnstitutunda öz fəaliyyətini davam etdirmiş, “Kosmos xalq təsərrüfatına xidmət edir” həmişə onun amalı olmuşdur. Ekologiya İnstitutu təşkil olunduğu gündən indiyə kimi öz fəaliyyətini xalq və kənd təsərrüfatına xidmətə yönəltmişdir. Biz dəqiq və həssas cihazların köməyi ilə kosmosdan yerin təbii sərvətlərini öyrənirik. İndiyə kimi diqqəti çəkən saysız-hesabsız işlərimiz olub. Lakin onların hamısı barədə yox, ikisi üzərində qısa olsa da. dayanmaq istəyirəm. 1988-ci ildə kollektivimiz Şirvan çöl torpaqlarının və kollektor- drenaj şəbəkəsinin sinxron şəkildə vertolyot-laboratoriya və yerüstü vasitələrlə tədqiqatını aparmışdır. Burada tədqiqatların meliorativ vəziyyətinin qeyri-qənaətbəxş olduğu barədə qiymətli nəticələr əldə edilmişdir. Bir çox yerlərdə bataqlıqların, şoranlıqların, eroziyaya məruz qalmış sahələrin olduğu aşkar edilmişdir. Möhtəmən Eyniyev alimlərimizlə birlikdə Şəki, Qax və İsmayıllı rayonlarının meşələrində ziyanvericiləri, xəstəlikləri və ağacların qurumasını aşkar etmək məqsədilə vertolyotdan aerovizual müşahidələr aparmışdır. Tədqiqat nəticəsində Şəki meşə massivlərində dəniz səviyyəsindən 1000-1800 metr yüksəklikdə olan meşələrin quruması aşkar edilmiş və bu haqda Dövlət Meşə Təsərrüfatı Nazirliyinə məlumat verilmişdir. Mötəmən Eyniyev 1990-cı ildə Naxçıvan Muxtar Respublikasının Batabat gölü ərazisində keçirilən poliqonda icraçı olmuş və bu poliqona SSRİ Baş Kosmos İdarəsinin rəisi, Sosalist Əməyi Qəhrəmanı, “Lenin” mükafatı laureatı, general-leytenant Kərim Kərimov və Azərbaycan Respublikası Kosmik Tədqiqatlar Elmi-istehsalat Birliyinin baş direktoru, SSRİ Ali Sovetinin deputatı Tofiq İsmayılovla birlikdə rəhbərlik etmişlər.

Muxtar respublikanın təbii sərvətlərinin və radiasiyasının “Mir” kosmik stansiyasından çəkilən fotoşəkillər əsasında öyrənilməsinə böyük əmək sərf edən Mötəmən Eyniyev həm Şuşa, Laçın, Kəlbəcər, Quba, Xaçmaz, Abşeron, həm də Tərtər, Goranboy, Daşkəsən, Tovuz, Dəvəçi, Şəki və Yardımlı rayonlarının torpaq və aqroistehsalat xəritələrini tərtib etmişdir. Çox az müddət ərzində Mötəmən müəllimin rəhbərliyi altında qeyd olunan rayonlardan götürülmüş torpaq nümunələrinin laboratoriyada kimyəvi analizi aparılmış, onların kimyəvi və fiziki xassələri, həmçinin humusu öyrənilib hesabatlar yazılmışdır.

Altı kitabın, 30 hesabatın, 80 elmi və 120-dən çox qəzet məqaləsinin müəllifi olan Mötəmən Eyniyev Azərbaycan Milli Elmlər Akademiyası Birləşmiş Veteranlar Şurasının sədri olmuşdur.

Mötəmən Eyniyev 2002-ci ildə Böyük Qafqazın cənub yamaclarında “Məsafədən göstəricilərin regional bankının yaradılması məqsədilə torpaq örtüyünün spektrometrik və fiziki-kimyəvi xassələrinin səciyyələndirilməsinin sistemləşdirilməsi” mövzusunda dissertasiya işini uğurla müdafiə edib texnika elmləri namizədi–alimlik dərəcəsi almışdır. Dosent, Azərbaycan Jurnalistlər Birliyinin üzvü olan bu istedadlı insanın doğma yurduna böyük sevgisi vardır.

Xalqımızın əməksevər, xeyirxah, sədaqətli oğlu Mötəmən Eyniyev hansı sahədə çalışırsa-çalışsın, onun geniş və hərtərəfli fəaliyyəti respublikamızda elm və təhsilin gələcək inkişafına yönəlmişdir. O, respublika Milli Elmlər Akademiyası Veteranlar Şurasının fəxri fərmanları, əməkdə fərqlənmə və milli diviziyaların fəxri veteranı medalları ilə təltif edilmişdir.

Mötəmən müəllimə möhkəm cansağlığı, uzun ömür, yeni-yeni elmi nailiyyətlər arzu edirik.

**İlham MƏRDANOV,**
**Sumqayıt Dövlət Universitetinin dosenti,**
**kənd təsərrüfatı elmləri namizədi.**